# Rza Deqqəti Nizami Gəncəvinin ermənilər tərəfindən dağıdılmış büstü barədə paylaşım edib



Azərbaycan əsilli tanınmış fransız fotojurnalist Rza Deqqəti öz sosial media hesabında dahi şair Nizami Gəncəvinin ermənilər tərəfindən dağıdılmış büstü barədə paylaşım edib.

Bu barədə AZƏRTAC-a ADA Universitetindən məlumat verilib. Məşhur fotoqraf öz paylaşımında tarixi faktlara istinad edərək, XVII əsrdə yaşamış fransız şərqşünas Barthelemy d'Herbelot de Molainville tərəfindən Nizami Gəncəvinin fəlsəfi düşüncəsi barədə yazılmış fikirləri xatırladıb.

Rza Deqqəti dünya şöhrətli şairin anadan olmasının 880 illik yubileyinin bu il Azərbaycanda ölkə miqyasında qeyd olunduğunu da nəzərə çatdırıb.

Qeyd edək ki, R.Deqqəti beynəlxalq sərgilərdə mütəmadi olaraq Azərbaycan həqiqətlərini çəkdiyi şəkillər vasitəsilə dünya ictimaiyyətinə çatdırır. Sözügedən şəkillər onun ADA Universiteti ilə birgə həyata keçirdiyi “Soul of Karabakh” (“Qarabağın ruhu”) layihəsi çərçivəsində hazırlanan veb-saytda və broşürlərdə əksini tapacaq.

Rza Deqqəti paylaşdığı şəkil və video ilə burada tanış olmaq mümkündür:

https://bit.ly/3ze2Shm

Azərbaycan.- 2021.- 19 sentyabr.- S.8.